1_Layout 1 30.10.2020 11:07 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 20 (586)
31 oktyabr
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

## *Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib*

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib.

**AZƏRTAC** xəbər verir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirədə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır. Bu şəhər və kəndlərimizin videogörüntüləri Azərbaycan ictimaiyyətinə təqdim edilir və hər kəs görə bilər ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Bir dənə də salamat bina qalmayıb, bütün binalar, evlər, inzibati binalar, sosial obyektlər, tarixi-dini abidələrimiz mənfur düşmən tərəfindən dağıdılıb. İşğal edilmiş torpaqlar və dağıntılar erməni vandalizminin canlı şahidləridir. Ermənistan dövləti bu cinayətlərə görə məsuliyyət daşıyır və cavab verəcəkdir.

Mən tapşırıq vermişəm ki, işğaldan azad edilmiş bütün bölgələrdə təftiş işləri aparılsın, bütün dağıntılar qeydə alınsın, aktlar tərtib edilsin, bizim vətəndaşlarımızın dağıdılmış əmlakı uçota alınsın və əlbəttə ki, Ermənistan dövləti bu hərbi cinayətlərə görə cavab verəcəkdir. Bir daha bütün dünya gördü ki, biz hansı vəhşilərlə üz-üzəyik. Bu gün Azərbaycan əsgəri və zabiti döyüş meydanında düşmənə dərs verir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur. Biz qan tökürük, şəhidlər veririk, hərbçilər, eyni zamanda, mülki şəxslər şəhid olur. Ermənistan döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmir və yenə də hər zaman olduğu kimi, yaşayış məntəqələrimizi, mülki əhalinin yaşadıqları yerləri atəşə tutur. Bu namərd atəş nəticəsində 60-dan çox mülki şəxs həlak olub, 300-ə yaxın mülki şəxs yaralanıb. İki gün bundan əvvəl Milli Qəhrəman Şükür Həmidov qəhrəmancasına həlak olub. Şükür Həmidov 2016-cı ilin Aprel döyüşlərində qəhrəmanlıq göstərmişdir. Mənim tərəfimdən ona Milli Qəhrəman fəxri adı verilmişdir və Milli Qəhrəman ulduzunu şəxsən ona təqdim etmişdim.

Təklif edirəm ki, döyüşlərdə həlak olmuş bütün şəhidlərimizin xatirəsi bir dəqiqə sükutla yad edilsin. Allah rəhmət eləsin. Yaralı hərbçilərimizə və mülki şəxslərə Allahdan şəfa diləyirəm.

Bu günlər ərzində biz bir daha gördük ki, Ermənistan bu torpaqlardan öz xoşu ilə çıxmaq fikrində deyil. Bir daha gördük ki, Ermənistan bu 30 il ərzində, sadəcə olaraq, vaxt udmaq, danışıqlarda imitasiya aparmaq və status-kvonu əbədi etmək fikrində idi. Əfsuslar olsun ki, beynəlxalq vasitəçilər işğalçı dövlətə lazımi təzyiq göstərə bilməmişlər, yaxud da ki, bunu etmək istəməmişlər. Əks təqdirdə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalmazdı. Onu da bildirməliyəm ki, bir neçə gün bundan əvvəl həmsədr ölkələr tərəfindən BMT Təhlükəsizlik Şurasının iclası keçirilmişdir. İclasda bizi qane etməyən və 1993-cü ildə qəbul edilmiş qətnamələr üzərindən faktiki olaraq xətt çəkmək mənası daşıyan sənəd irəli sürülmüşdür. Biz buna qəti şəkildə etiraz etdik. Bu, ədalətsizliyin növbəti təzahürüdür, ikili standartların növbəti təzahürüdür. 1993-cü ildə qəbul edilmiş qətnamələr Azərbaycanın ərazi bütövlüyü haqqında açıq-aydın mövqe bildirir. 1993-cü ildə qəbul edilmiş qətnamələr tələb edir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan tam, dərhal və qeydşərtsiz çıxarılsın. Bu günlərdə təqdim edilən layihədə bu müddəalar yoxdur. Bir sözlə, bu addım Azərbaycana qarşı növbəti təxribat kimi qiymətləndirilir. Biz öz səsimizi ucaltmışıq və şadam ki, Təhlükəsizlik Şurasına üzv ölkələrin bir neçəsi buna etiraz etmişdir. Baxmayaraq ki, onlara böyük dövlətlər tərəfindən təzyiqlər göstərilmişdir. Ancaq bu ölkələr Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv ölkələrdir. Azərbaycana onlar tərəfindən göstərilən dəstək, əlbəttə ki, çox yüksək qiymətləndirilir və onu göstərir ki, Qoşulmama Hərəkatı çərçivəsində yüksək səviyyəli həmrəylik var. Bir sözlə, bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Əlbəttə ki, heç kim bizə təsir edə bilməz, bizim iradəmizə heç kim təsir edə bilməz. Sadəcə olaraq, bizim hərbçilərimiz və vətəndaşlarımız bilsinlər ki, həm cəbhədə, həm siyasi arenada çox ciddi mübarizə gedir. Biz döyüş meydanında qan tökürük, bu qəhrəmanlarımızın canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik, eyni zamanda, siyasi səhnədə də müqavimət göstəririk, mərdlik göstəririk, öz mövqeyimizi müdafiə edirik.

İki dəfə Ermənistanın xahişi ilə, böyük dövlətlərin təklifi ilə atəşkəs elan olunmuşdur. İki dəfə də Ermənistan bu atəşkəsi pozub. Birinci dəfə elə bir gün keçməmiş Gəncəni bombalamışdır. İkinci dəfə atəşkəsdən iki dəqiqə sonra atəşkəsi pozmuşdur. Belə olan halda, Azərbaycan, əlbəttə ki, onlara layiqli cavabını verib və verəcək. Bundan sonra da düşməni torpaqlarımızdan qovacaq, sona qədər qovacaq.

Bizim bir şərtimiz var, əgər Ermənistanın təəssübkeşliyini çəkən, onlara havadarlıq edən və faktiki olaraq 30 ilə yaxın bizim torpaqlarımızın işğal altında qalması üçün ermənilərə, Ermənistana şərait yaradan ölkələr atəşkəs istəyirlərsə, Ermənistana təzyiq göstərilməlidir. Ermənistanın baş naziri bəyanat verməlidir ki, Ermənistan işğal edilmiş torpaqlardan çıxacaq. Belə bir bəyanatı biz eşitməmişik. Əksinə, xalqların öz müqəddəratı haqqında danışır və faktiki olaraq danışıqlar prosesini məhv edibdir.

Atəşkəs qeyd-şərtsiz ola bilməz. Yenə 27 il, yenə 30 il bizim başımızı aldadacaqlar, yenə 30 il buraya nümayəndə heyətləri gələcək, danışıqlar aparılacaq. Biz boğaza yığılmışıq, Azərbaycan xalqının səbri tükənib. İyirmi səkkiz il bundan əvvəl Minsk Qrupu yaradılıb. İyirmi səkkiz il bizi aldadırlar. İyirmi səkkiz il bizə söz veriblər, vəd veriblər ki, gözləyin, dayanın, Ermənistana təzyiq edəcəyik, belə edəcəyik, elə edəcəyik. Hamısı yalan idi. Hər kəs də bunu görür. Mən də xalqıma hər zaman həqiqətləri demişəm. Hər gün Ermənistana ən müasir silahlar göndərilir. Bu silahların siyahısı bizdə var. İndiki döyüşlər zamanı 300-ə yaxın Ermənistan tankı ya məhv edilib, ya da hərbi qənimət kimi götürülüb. Haradandır bunlarda bu qədər pul? Kasıb bir ölkədir, nə pulu, nə imkanı var. Müftə alıbdır. Altı S-300 hava hücumuna qarşı zenit-raket kompleksi məhv edilibdir. Onların qiyməti bəllidir. Haradandır bu? "Tor", "OSA" zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları, təyyarələr, hansılar ki, artıq Azərbaycan tərəfindən məhv edilib. "Toçka-U", "SCUD", haradandır? Pulsuz verilib və verilir. Biz də buna səssiz qala bilmərik. Hər kəs bunu bilsin. Biz təkbaşına vuruşuruq, təkbaşına!

Mən bunları deyirəm ki, ilk növbədə, Azərbaycan xalqı real vəziyyəti bilsin. Bilsin ki, biz torpaqlarımızı nəyin bahasına işğalçılardan azad edirik.

Biz döyüş meydanında uğurlar qazanmışıq. Ancaq, eyni zamanda, bu döyüşlər onu göstərdi ki, hələ qüsurlar da var, çatışmazlıqlar da var və biz onları operativ qaydada aradan qaldırırıq. Eyni zamanda, bu döyüşlərdən sonra, ikinci Qarabağ müharibəsi başa çatandan sonra döyüş zamanı əldə edilmiş bütün uğurlar və çatışmazlıqlar ciddi təhlil edilməlidir. Baxmayaraq ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, biz bundan sonra ordu quruculuğu işində daha müasir metodlardan istifadə etməliyik.

Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, hərbi arsenalımızda olan bəzi silahlar bəzi hallarda müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, biz bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq və əlbəttə ki, texnologiyalar, peşəkarlıq böyük dərəcədə hər bir ordunun uğurunu təmin edir. Ancaq mən bunu demişəm və bir daha demək istəyirəm ki, torpaqları işğalçılardan azad edən əsgərlər və zabitlərdir. Bayrağı da onlar qaldırırlar, torpağı da onlar işğalçılardan təmizləyirlər. Yenə də deyirəm, Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Bu gün hələ bir ay keçməyib artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, tarixi ədalət bizim tərəfimizdədir.

**Mən bu günlər ərzində müntəzəm olaraq Azərbaycan xalqına müraciət edirəm, öz fikirlərimi bildirirəm, uğurlar haqqında məlumat verirəm. Bu gün də Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!**

# Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin məlumatı

***Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 22-də Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı və səfirliyin daxili işlər müşaviri vəzifəsinə yeni təyin olunmuş general-mayor Nuri Öztürkü qəbul edib.***

Qonaqları salamlayan nazir daxili işlər müşavirini yeni təyinat münasibətilə təbrik edib, dəyərli fəaliyyətində ona uğurlar arzulayıb.

Daxili işlər naziri Ulu Öndərimizin "bir millət, iki dövlət" adlandırdığı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin genişləndiyini, dövlət başçılarımızın əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə inkişafına böyük önəm verdiklərini diqqətə çatdırıb, eyni zamanda son illər hər iki ölkənin Daxili İşlər nazirliklərinin cinayətkarlıqla mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri diqqətəlayiq nəticələr barədə məlumat verib.

Hər iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığa toxunan nazir geniş müqavilə-hüquq bazasının mövcudluğunu xüsusi qeyd edərək bunun bariz nümunəsi kimi əməkdaşlar üçün Azərbaycanda və Türkiyədə kriminalistik təhqiqatlar, narkotiklərin qanunsuz dövriyyəsi və kibercinayətkarlıqla mübarizə, əməliyyat məlumatlarının emalı, informasiya və kommunikasiya, eləcə də daxili təhlükəsizlik sahələri üzrə 70-dən artıq təlim kursunun keçirildiyini və bu təlimlərə 900-dən çox polis əməkdaşının cəlb edildiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov bu gün Azərbaycan polisinin, Daxili Qoşunların yüksək peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq-mühafizə orqanı kimi öz yerini tutduğunu məmnunluqla qeyd edərək, bütün bu nailiyyətlərdə Türkiyə polisinin və Jandarm Qüvvələrinin də xüsusi rolunun, xidmətinin olduğunu nəzərə çatdıraraq, buna görə Türkiyə Daxili İşlər Nazirliyinin, Əmniyyət Genel Müdürlüyünün, o cümlədən, Jandarm Qüvvələrinin bütün mənsublarına təşəkkürünü bildirib.

Səmimi qəbula, təbrikə və ətraflı məlumata görə dərin minnətdarlığını bildirən səfir Erkan Özoral qısa zaman kəsiyində respublikamızın sürətli bir inkişaf yolu keçməsindən məmnunluğunu bildirib, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasındakı yüksək səviyyəli əlaqələrin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər də müzakirə edilib.

# GƏNCLƏRƏ ETİMAD GÖSTƏRİLİR

***Oktyabrın 14-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər və rayon polis orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.***

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 104 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb.

General-polkovnik Vilayət Eyvazov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayaraq daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.10.2020 19:52 Page 1



# XÜSUSİ KARANTİN-REJİM TƏDBİRLƏRİNİN TƏMİN OLUNMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

## *Təşkil edilən xüsusi karantin postlarında polis əməkdaşları ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları gücləndirilmiş iş rejimində xidmətə cəlb olunublar*

“COVID-19” pandemiyası ilə əlaqədar ölkədə hazırkı sanitar-epidemioloji vəziyyət təhlil edilərkən çox təəssüf ki, respublikanın bəzi ərazilərində əhali arasında virusa yoluxmanın dinamikasında yenidən ciddi artım müşahidə edilib. Bununla əlaqədar Nazirlər Kabinetinin müvafiq qərarları ilə 14 oktyabr saat 00.00-dan başlayaraq Sabirabad rayon mərkəzilə yanaşı, Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndlərinə, Şəki şəhərinə və Kiş kəndinə, 15 oktyabr saat 00.00-dan Lənkəran rayonunun Şağlaküçə və Şıxəkəran kəndlərinə, Quba şəhərinə, eləcə də bu rayonun Rustov və Zərdabi kəndlərinə, 24 oktyabr saat 00.00-dan Mingəçevir şəhərinə, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına, 29 oktyabr saat 00:00-dan etibarən isə Lənkəran şəhəri, Cəlilabad və Masallı rayonlarına operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, giriş-çıxış məhdudlaşdırılıb.

Qərardan irəli gələn vəzifələrin icrası, o cümlədən, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsilə əlaqədar qeyd olunan rayon mərkəzlərinin və kəndlərin giriş-çıxışlarında xüsusi karantin postları təşkil edilərək polis əməkdaşları ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları gücləndirilmiş iş rejimində xidmətə cəlb olunublar.

Xüsusi karantin postlarında təşkil olunan xidmətlə yanaşı, adları yuxarıda qeyd olunan yaşayış məntəqələrinin daxilində yerləşən iri marketlərdə, ictimai iaşə müəssisələrində və sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrində də polis əməkdaşları və hərbi qulluqçular tərəfindən birgə reydlər təşkil olunur. Sosial məsafəni gözləməyən, tibbi maskadan istifadə etməyən şəxslərlə profilaktik söhbətlər aparılır və bu tədbirlərin vətəndaşların sağlamlığı üçün həyata keçirildiyi onların diqqətinə çatdırılır. Edilən xəbərdarlıqlara və aparılan maarifləndirici söhbətlərə baxmayaraq, qaydaları pozmaqda davam edən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülür.

Bununla əlaqədar Daxili İşlər Nazirliyinin Mətbuat xidməti tərəfindən edilən müraciətdə nəzərə çatdırılır ki, təhlükəli virusun geniş yayılmasının qarşısının alınması ilə bağlı tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

Müraciətdə, həmçinin, qarşıdakı müddətdə də virusun geniş yayılmaması, insanlar arasında daha təhlükəli fəsadlar törətməməsi üçün vətəndaşlarımız, o cümlədən, Nazirlər Kabinetinin qərarında adları qeyd olunan rayonların sakinləri tərəfindən karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşlarının tələb və tövsiyələrini anlayışla qarşılayacaqlarına və bununla əlaqədar tətbiq edilən bütün qayda və qadağalara ciddi riayət edəcəklərinə əminlik ifadə olunur.

Bundan əlavə, “COVID-19” pandemiyası zəminində dünyada yaşanan hazırkı fövqəladə vəziyyətdə və dövlətimiz üçün həssas bir dönəmdə ölkə əhalisinə xüsusi karantin rejimi müddətində göstərdikləri əzm və vətəndaş məsuliyyətinə görə bir daha təşəkkür edilir.

**İnanırıq ki, xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşərək, cəbhədə erməni işğalçıları üzərində qazandığımız qələbələr tək bu gözəgörünməz düşmənə də qalib gələcək və gündəlik həyatımız öz normal axarına qayıdacaqdır.**

**Mətbuat xidməti**

# QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI YERİNƏ YETİRMƏYƏ HƏR ZAMAN HAZIRIQ

### “Apardığımız xidmət çətin, lakin şərəflidir”

Digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

16075 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq

göstərirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Bu günlərdə hərbi hissədə olarkən bölmənin şəxsi heyətinin nümunəvi xidmət apardığının bir daha şahidi olduq. Hərbi hissə komandiri polkovnik-leytenant Rəşadət Süleymanov xüsusi təyinatlı bölmənin 2020-ci ilin I yarımili ərzində xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hissə üzrə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Dəstə komandirinin müavini-qərargah rəisi kapitan Yasin Cəfərovun sözlərinə görə, bölmə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Vəzifə borclarından irəli gələn tələblərdən danışarkən hava şəraitindən asılı olmayaraq, təlim-məşq proseslərinin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyət təlimlər zamanı qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə icra edir. Məhz bunun nəticəsidir ki, cari ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənmiş bölmənin hərbi qulluqçuları hissə komandirinin müvafiq əmrinə əsasən, müxtəlif mükafatlara layiq görülüblər, bölmə komandirinə keçici kubok təqdim olunub.

Şəxsi heyətin gündəlik fəaliyyəti Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Dözümlülüyü artırmaq məqsədilə fiziki hazırlıq məşğələsində qısa və uzaq məsafələrə qaçış, həmçinin, maneələr zolağının keçilməsi məşq etdirilir.

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə də ciddi fikir verilir. Bu işdə bölmə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Firat Sadıqovun əməyi danılmazdır. Hər birimizə məlumdur ki, hərbi qulluqçuların döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri də onların mənəvi-psixoloji durumudur. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda, tərbiyə işinin təşkili istiqamətində fərdi yanaşma prinsipinə üstünlük verən kapitan F.Sadıqov hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara tələbkarlıq və qayğının paralel olması ilə yanaşı, hər bir hərbçinin şəxsi keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir.

### Xüsusi vasitələrin tətbiqi bölməsi öncüllərdən biri kimi

Xüsusi vasitələrin tətbiqi bölməsi kütləvi iğtişaşların qarşısının alınmasında, silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatlarda, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə ictimai təhlükəsizliyin təmin olunması məqsədilə qarşıya qoyulan bütün tapşırıqları qüsursuz icra edir.

Dəstə komandiri polkovnik-leytenant Coşqun Məmmədov xidmətin Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların komandanının təsdiq etdiyi müvafiq direktivin tələblərinə əsasən təşkil edildiyini bildirdi. Bölmədə yüksək döyüş hazırlığı və hərbi intizamın əldə olunması üçün şəxsi heyətə tələbkarlığın, gündəlik fəaliyyətin daim nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. Keçirilən praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini də sözlərinə əlavə etdi.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran polkovnik-leytenant C.Məmmədov söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölmə komandirlərinin adlarını çəkməyi unutmadı. Ələlxüsus, post-patrul xidməti bölməsinin cari il ərzində uğurlu xidmətini diqqətə çatdırdı. Bölmə komandiri kapitan Emil Nadirovun hərbi qulluqçuların fərdi qaydada döyüş hazırlığının artırılması istiqamətində mütəmadi işlər apardığını vurğuladı.

Bu gün müharibə şəraitində olan doğma Azərbaycanımızda tətbiq olunan hərbi vəziyyətlə əlaqədar olaraq xidmətə cəlb edilən post-patrul xidməti bölməsinin şəxsi heyəti polislə birgə ayıq-sayıq xidmət aparır. Məlum olduğu kimi, 2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananların olduğunu nəzərə alaraq, dövlət başçısı cənab İlham Əliyev Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilməsi ilə bağlı fərman imzaladı. Məhz bu məqsədlə hərbi hissənin post-patrul xidməti bölməsinin hərbi qulluqçuları saat 20:00-dan saat 06:00-dək Sumqayıt şəhərində quraşdırılmış postlarda polis əməkdaşları ilə birgə xidmətə cəlb olunublar. Kapitan E.Nadirovun sözlərinə görə, Sumqayıt şəhərindəki stasionar postlarda xidmət zamanı xüsusi giriş-çıxış rejimi tətbiq edilərək, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür. Şəxsi heyət tam təchizatla təmin olunub. Qidalanma yerlərdə, yəni stasionar postlarda həyata keçirilir. Gündəlik olaraq xidmətə yekun vurularkən müsbət cəhətdən fərqlənmiş hərbi qulluqçular mükafatlandırılırlar. Hər hansı bir nöqsan aşkar edildikdə müzakirə edilərək, gələcəkdə təkrar olunmaması üçün müvafiq tövsiyələr verilir.



**baş leytenant**
**Nigar Ağayeva**

3_Layout 1 30.10.2020 11:33 Page 1



# GƏNCƏ TERRORU - ERMƏNİ VƏHŞİLİYİNİN NÖVBƏTİ TƏZAHÜRÜ

Bu gün Azərbaycan Silahlı Qüvvələri işğal edilmiş torpaqlarımızda düşmənə sarsıdıcı zərbələr endirərək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə tariximizin şanlı səhifəsini yazır.

Lakin döyüş meydanında canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalan və otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarından qovulan erməni ordusu acı məğlubiyyətin əvəzini yaşayış məntəqələrimizi raket atəşinə tutaraq dinc sakinləri qətlə yetirməklə çıxmağa çalışır. Tərtər, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, eləcə də digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur.

Oktyabrın 10-da və 17-də isə mənfur düşmən Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə hücum edib. Ermənistan ərazisindən buraxılmış ballistik raketin hədəfi təbii ki, mülki şəxslərə zərbə endirmək olub.

Ümumilikdə, bu xain hücumlar nəticəsində 60-dan çox mülki şəxs həlak olub, 300-ə yaxın mülki vətəndaşımız isə yaralanıb. Təbii ki, düşmən bununla da növbəti dəfə öz vəhşi erməni xislətini bütün dünyaya nümayiş etdirmiş oldu.

Vəhşi düşməndən fərqli olaraq, Azərbaycan Ordusu şəhidlərimizin intiqamını məhz döyüş meydanında alır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq: "Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir.

Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi – Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir".

**mayor Anar Əhmədov**

# AZƏRBAYCAN RESPUBLİKASI ÖZ ƏRAZİ BÜTÖVLÜYÜNÜ QƏTİYYƏTLƏ BƏRPA EDİR

## *Xalqımızın igid oğulları Vətən naminə şərəfli missiyanı ləyaqətlə yerinə yetirirlər*

Bu gün Azərbaycan taleyüklü və tarixi günlər yaşayır. Respublikamızın ərazisində Vətən müharibəsi gedir. Azərbaycan Silahlı Qüvvələri sentyabrın 27-dən etibarən ön cəbhədə uğurlu əks-hücum əməliyyatı keçirərək, qarış-qarış torpaqlarımızı düşmən tapdağından azad edir. Artıq müxtəlif istiqamətlərdə xeyli sayda yaşayış məntəqəsi və bir sıra strateji əhəmiyyətli yüksəkliklər erməni işğalçılarından geri alınıb. Respublikamız qonşu İranla dövlət sərhədinin uzun illər işğalda qalan sahəsinə nəzarəti bərpa edib.

Təcavüzkar Ermənistan ordusunun bölmələri canlı qüvvə sarıdan çoxsaylı tələfata uğrayıb, habelə milyardlarla dollar məbləğində zirehli texnika, avtomobillər, döyüş təyyarələri, artilleriya vasitələri, müxtəlif növ silah-sursat itiriblər. Ön cəbhənin ayrı-ayrı cinahlarında, eləcə də işğal olunmuş ərazinin dərinliklərində düşmənin illərlə gücləndirilmiş mövqeləri və hərbi infrastruktur obyektləri darmadağın edilib. Bütün bu gerçəklik Azərbaycan Silahlı Qüvvələrinin yenilməz gücünü və peşəkarlığını göstərir.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan Silahlı Qüvvələrinin müharibədə tətbiq etdiyi döyüş taktikasının effektivliyi bir sıra hərbi ekspertlər və tədqiqat mərkəzləri, o cümlədən, ayrı-ayrı ölkələrin ordu qərargahları tərəfindən yüksək qiymətləndirilir. Belə ki, ordumuz istifadəsində olan yeni nəsil silahlar və texnologiyalarla, xüsusən dəqiq zərbəvurma xüsusiyyətinə malik dronlar vasitəsilə düşmənin atəş nöqtələrini susdurur, hərəkət edən və hərəkətsiz texnikasını, canlı qüvvəsinin cəmləşdiyi sahələri, hərbi logistika mənbələrini hədəfə alaraq, onun müqavimətini heçə endirir. Bununla da işğalçıların hərbi gücü tükəndirilir, onların sıralarında rüh düşkünlüyü, təşviş, özünə güvənsizlik, fərarilik halları artır. Azərbaycan hərbçiləri əsas zərbəni yüksəkliklərin, düşmənin döyüş təchizatına imkan verən yolların və keçidlərin, gücləndirilmiş dayaq məntəqələrinin nəzarətə götürülməsinə yönəldərək, işğalçıları yaşayış məskənlərində mühasirəyə düşmək təhlükəsi ilə üz-üzə qoymaqla, xaotik geri çəkilmələrinə, əllərindəki döyüşaparma vasitələrinin bir hissəsini atıb qaçmalarına nail olurlar.

Erməni döyüşçüləri illərlə aparılan şovinist təbliğatın təsiri altında olsalar da, döyüş meydanında ağır məğlubiyyətlər onların mənəvi-psixoloji durumunda izsiz qalmır. Bir qisim erməni gənci özgə torpağında ölməyin mənasızlığını dərk etməyə başlayır. Bizim döyüşən hərbi qulluqçularımız isə şərəfli və müqəddəs missiyanı yerinə yetirirlər. Onlar özgə ölkənin ərazisində deyil, öz doğma torpaqlarında işğalçılara qarşı mətinliklə vuruşurlar, şəhidlərimizin, soyqırıma, terrora məruz qalmış soydaşlarımızın qisasını alırlar, məcburi köçkün vətəndaşlarımızın yurd həsrətinə son qoyurlar və bütövlükdə, xalqımızın qürurunu, ləyaqətini ucaldırlar.

Ermənistan ordusunun bizə qarşı döyüşən ayrı-ayrı hərbi hissələrinin döyüş bayraqları hərbi əməliyyatlar zamanı döyüşçülərimizin əlinə keçib. Bu faktlar düşmən ordusu sıralarında mənəvi aşınmanın hansı dərəcəyə çatdığını əyani olaraq göstərir. Yalnız canlarını qurtarmağı düşünən erməni hərbçiləri döyüş bayrağını özləri ilə götürməyi belə lazım bilməyiblər. İşğalçı orduların siması belədir və bu baxımdan erməni ordusu istisna deyil.

Silahlı Qüvvələrimizin nəzarətinə keçən ərazilərdə ermənilərin narkotik bitkilər yetişdirmələrini və emalı ilə məşğul olduqlarını isbatlayan dəlillər də aşkarlanıb. Bu fakt erməni tərəfinin beynəlxalq narkomafiya ilə bağlılığı barədə illərlə səsləndirilən ittihamların doğruluğu deməkdir. Halbuki ermənilərin havadarları həmişə bununla bağlı informasiyaların yayılmasının qarşısını almağa çalışıblar.

Ermənistanın bizə qarşı informasiya müharibəsinin əsas xəttini qarayaxma, şər-böhtan, feyk məlumatların dövriyyəyə buraxılması, saxtakarlıq, pərdələyici tədbirlər təşkil edir. Düşmənin informasiya təxribatlarının, kiberterrorçuluq fəaliyyətinin qarşısının alınması məqsədilə ölkəmizdə internet şəbəkəsinə müəyyən məhdudiyyətlər tətbiq olunur. Müharibə reallığında belə bir vacib addım cəmiyyətin informasiya təhlükəsizliyi zərurətindən irəli gəlir.

Düşmən ölkə müharibənin ilk günlərindən Azərbaycanın tərəfində guya bəzi xarici ölkələrdən gətirilən muzdlu yaraqlıların döyüşdüyü barədə feyk xəbərlər yaymaqla terrorçularla işbirliyi ittihamı ilə dövlətimizin imicinə zərbə vurmaq məqsədi güdür. Ancaq ortaya heç bir dəlil qoya bilmədiklərindən, eləcə də dövlətimizin kəsərli arqumentləri, uğurlu informasiya strategiyası qarşısında təcavüzkarın mənfur cəhdləri ifşa olunur. Ayrı-ayrı xarici ölkələrdən erməni terror təşkilatlarının üzvlərini, həmçinin, digər millətlərdən olan muzdluları Qarabağa gətirən Ermənistan bunu gizlətməyi bacarmadı. Ermənistanın rəsmiləri, informasiya təminatına cavabdeh olan məsul şəxsləri işğal altında saxlaya bilməyərək itirdikləri ərazilərdən guya hərbi qüvvələrini özlərinin geri çəkdikləri tezisini ilk növbədə öz cəmiyyətlərinə və beynəlxalq ictimaiyyətə sırımaq istəyirdilər. Ancaq bu tezisin də tutarsızlığı tez bir zamanda özünü büruzə verdi. Məhz ordumuzun qarşısında duruş gətirə bilməyən, illərlə qurduqları, mühəndis-istehkam qurğuları ilə möhkəmləndirilmiş mövqeləri darmadağın edilən düşmən məğlubiyyətinə məcburi geriçəkilmə adı qoyur.

Təcavüzkar ölkə Azərbaycanın guya dini məbədləri məqsədli şəkildə hədəfə aldığı xəbərini tirajladı. Münaqişəyə dini çalar qatmağa səy göstərdilər. Ancaq ordumuzun pilotsuz uçuş aparatları endirilən zərbələri görüntüləyir, dəqiq çəkilişlər aparır. Bu görüntülər də sübut edir ki, ordumuzun hədəfləri arasında heç bir dini məbəd olmayıb. Ən başlıcası, Azərbaycan tolerant, multikultural dəyərlərə sadiq dövlətdir, o, müharibəni də sivil qaydada aparır. Əksinə, işğalçı tərəf Gəncə şəhərini raket atəşinə tutarkən buradakı İmamzadə məscidi və Rus Pravoslav kilsəsi zədələnib, məbədlərin əmlakına ziyan dəyib.

Ermənistanın mobil operatorlarına aid abonentlərdən, onların sosial şəbəkə istifadəçilərindən vətəndaşlarımıza "yaşadığınız evi tərk edin, raketlə vurulacaq" kimi hədə-qorxu mesajları ünvanlanır. Göründüyü kimi, düşmən informasiya müharibəsində belə çirkin vasitələrə əl atır.

Xarici ölkələrdəki erməni diasporunun keçirdiyi anti-Azərbaycan aksiyalarında müharibə qurbanı olan vətəndaşlarımızın şəkillərini öz itkiləri kimi təqdim edir, yalan məlumatlar səsləndirirlər. Belə kobud saxtakarlığa əl atan toplumdan hər cür təxribat gözləmək olar.

İnformasiya müharibəsinin şiddətləndiyi bir dövrdə ayıq-sayıqlıq, vətəndaş məsuliyyəti, kütləvi informasiya vasitələrimizə dəstək verilməsi, ölkəmizin haqlı mövqeyinin beynəlxalq auditoriya üçün geniş təbliğ olunması vacib amillərdir.

Müharibə dövrünə xas təbliğat-təşviqat işinin təşkili də xüsusi rol oynayır. Bu fəaliyyət orduda və cəmiyyətdə ruh yüksəkliyinin, vətənpərvərlik əqidəsinin aşılanmasına, milli birliyin möhkəmləndirilməsinə yönəldilir. Bu baxımdan, istər dövlət qurumları xətti ilə, istərsə də ictimaiyyət tərəfindən əsl canlanmanın şahidi oluruq.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bu gün Vətən müharibəsinin getdiyi bir dövrdə mübariz fəaliyyəti ön və arxa cəbhəni əhatə edir. Hərbi qulluqçularımız erməni işğalçılarına qarşı döyüşlərdə ordu bölmələri ilə birgə cəsurcasına vuruşur, şərəfli missiyanı yerinə yetirirlər. Onların sıralarında da şəhidlər və yaralılar var. Vaxtı gələndə biz bu igid oğulları sizlərə tanıdacağıq. Biz hərbi qulluqçularımızın vətənpərvərliyi, döyüş əzmi, göstərdikləri hünər nümunələri ilə fəxr edirik. Beləliklə, Daxili Qoşunların şəxsi heyəti də zəfər yolunda öz layiqli töhfəsini verir. Daxili Qoşunlar bu çətin məqamda ictimai təhlükəsizliyin etibarlı qorunub saxlanılmasında da qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirir. Polis əməkdaşları ilə birgə onların gündəlik gərgin fəaliyyəti ictimaiyyətin gözü qarşısındadır.

**Xalqımız Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz tarixinin yeni qalibiyyət mərhələsinə qədəm qoyur. Əcdadlarımızın əmanəti olan yurdlarımızda müqəddəs bayrağımızı ucaldan Azərbaycan Silahlı Qüvvələri iftixarımızdır!**

**Yalçın Abbasov**

4 - 3_Layout 1 29.10.2020 20:05 Page 1



## İŞĞALDAN AZAD EDİLƏN YAŞAYIŞ MƏNTƏQƏLƏRİMİZ

# QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!

Cəbrayıl şəhəri

Füzuli şəhəri

Qubadlı şəhəri

Zəngilan rayonunun Mincivan qəsəbəsi

Xocavənd rayonunun Hadrut qəsəbəsi

Cəbrayıl rayonu. Xudafərin körpüsü

# TƏLİM MƏRKƏZİNDƏKİ ŞƏRAİT ŞƏXSİ HEYƏTİN DÖYÜŞ HAZIRLIĞINI İNKİŞAF ETDİRİR

Şəxsi heyətin xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Döyüş təlimi prosesinin keyfiyyətli təşkili, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasına təşkili məqsədilə təlim obyektləri mövcuddur. Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də praktiki atəş çalışmalarını Təlim Mərkəzində yerinə yetirirlər.

Daxili Qoşunların Təlim Mərkəzinin rəisi polkovnik-leytenant İlqar Murğuzovun

əsaslı zəmin yaradır. Məhz buna görə Daxili Qoşunlarda döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında hissə və bölmələrin döyüş təlimi üzrə tapşırıqların yerinə yetirilməsi, yüksək səhra vərdişlərinə nail olunması, eləcə də digər aidiyyəti üzrə tədbirlərin təşkili üçün müasir standartlara cavab verən Təlim Mərkəzi fəaliyyət göstərir. Burada qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, onların qarşısında duran tapşırıqların uğurla yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin sözlərinə görə, mərkəzdə yüksək standartlara cavab verən altı ədəd atış sahəsi var. Bunlar tapançadan atış üçün 100 metrlik yarımqapalı tir, snayper tüfəngindən atış üçün sahə, digər atıcı silahlardan (avtomat və pulemyotlardan), iriçaplı silahlardan, əl və dəzgahlı qumbaraatanlardan, ZTR və zirehli nəqliyyat vasitələrindən, xüsusi atış çalışmaları və xüsusi vasitələrin atışı sahələridir. Atış sahələrində bütün növ silahlardan atəş açmaq mümkündür. Atışların idarə olunması və müşahidə aparılması komandanlıq və digər idarəetmə məntəqələrində həyata keçirilir.

Polkovnik-leytenant İ.Murğuzov hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından "Atəş hazırlığı", "Mühəndis hazırlığı", "Tək əsgərin döyüş təlimi", "Xüsusi vasitələrin tətbiqi", "Daxili Qoşunların taktiki hazırlığı", "KİQA üzrə təlim-məşq" və "Taktiki hazırlıq" şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim Mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi. Bundan başqa, burada səhra yeməkxanası, yuyunma yerləri və sanitar qovşaqlar da mövcuddur.

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim Mərkəzinin daimi yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Təminat bölüyünün şəxsi heyəti üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, tapşırıqları uğurla icra edir. Mərkəzin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən, tədris siniflərinin hazırlanması, ərazinin təmizliyi və səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Şəxsi heyətin sosial-məişət şəraiti də müasir tələblərə cavab verir. Belə ki, səhra çıxışına cəlb olunan şəxsi heyətin yerləşməsi, yəni dəyişən heyət üçün 300 nəfərlik, daimi heyət üçün isə 100 nəfərlik əsgər kazarması var. Bundan başqa, əsgər yeməkxanası, tibb məntəqəsi, hamam-camaşırxana və qazanxana fəaliyyət göstərir. Təlim Mərkəzində bütün sahələri daima nəzarətdə saxlamaq üçün kamera-nəzarət sistemi quraşdırılıb.

Bir sözlə, Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin, hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim Mərkəzində hərtərəfli şərait mövcuddur.

**baş leytenant**
**Nigar Ağayeva**

# İNTİZAMLI VƏ MƏSULİYYƏTLİ HƏRBİ QULLUQÇUMUZ

Daxili Qoşunların sıralarında nizam-intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçular barədə "Əsgər" qəzetinin hər sayında məlumat veririk. Sadalanan keyfiyyətləri özündə cəmləşdirən hərbi qulluqçulardan biri də 12318 saylı hərbi hissədə xidmət edən məsul icraçı-texnik gizir Amil Hüseynovdur.

O, 1984-cü ildə Hacıqabul şəhərində dünyaya göz açıb. 1990-2001-ci illərdə Hacıqabul şəhəri 1 saylı orta məktəbdə təhsil alıb. 2002-2003-cü illərdə Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2007-ci ildə Şirvan şəhərindəki Dövlət İqtisadiyyat və Humanitar Kollecini bitirib. 2008-ci ildən Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətdədir.

Atası Ağamoğlan Hüseynovun şərəfli həyat yolu gizir A.Hüseynov üçün vətənpərvərlik örnəyidir. Belə ki, atası 1992-1994-cü illərdə daxili işlər orqanlarından könüllü olaraq ön cəbhəyə gedib, Vətənin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib, II qrup əlildir. Hazırda Şirvan şəhər Veteranlar şurasının sədridir.

Gizir A.Hüseynov "Qüsursuz xidmətə görə" III dərəcəli medal, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı və "Daxili Qoşunların 20 illiyi" yubiley nişanı ilə təltif olunub.

O, komandirləri tərəfindən də müsbət xarakterizə olunur. Qərargah rəisinin şəxsi heyətin uçotu üzrə baş köməkçisi kapitan Teymur Əliyev onun işinə hər zaman məsuliyyətlə yanaşdığını, xidməti vəzifələrinin öhdəsindən layiqincə gəldiyini qeyd etdi: "O, kompüter və digər vasitələrin istismar qaydalarını, onların texniki xüsusiyyətlərini, kompüter əlaqəsi proq-

ramlarını bilir. Məxfilik rejiminə ciddi riayət edir, peşə hazırlığını daim artırır. Sistemin informasiya təhlükəsizliyini, texniki və mühafizə vasitələrinin sazlanmasını, xüsusi proqram təminatının quraşdırılmasını həyata keçirir, texniki-texnoloji infrastrukturun istismarını təmin edir. Mütəmadi olaraq kompüter vasitələrinə texniki və proqram qulluğu göstərir".

Fiziki hazırlığının hər zaman yüksək səviyyədə olmasına önəm verən hərbi qulluqçumuz mütəmadi olaraq fərdi şəkildə idmanla məşğul olur.

Savadı, ictimai iş qabiliyyəti, həmçinin, yoldaşları arasında olan hörmət və nüfuzu nəzərə alınaraq, hərbi hissənin gizir və MAXE hərbi qulluqçularının şərəf məhkəməsinin sədri seçilib.

Biz də, öz növbəmizdə, hərbi qulluqçumuza xidməti fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

**12318 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

*Həkim məsləhəti*

# XURMA MİN BİR DƏRDİN DƏRMANIDIR

**Ləzzətli xurma Yaxın Şərq ölkələrində insanların əsas qida məhsullarından biridir. Qədim zamanlardan bəri insanlar ondan həm qida, həm də təbii dərman kimi istifadə ediblər. Tərkibində olan qida maddələrinə görə xurmanın sağlamlığa faydaları çoxdur.**

**AZƏRTAC** xəbər verir ki, bu barədə məlumat "MedikForum" saytında yer alıb.

Xurma beyinin sağlamlığını artırır. Onun tərkibindəki antioksidantlar beyini zərərli sərbəst radikalların yaratdığı iltihab və oksidləşdirici stresdən də qoruya bilər. Bu birləşmələrin olması yaşla əlaqəli zehni geriləmədən qorunmağa kömək edə bilər.

Meyvənin tərkibində həzmə kömək edən həm həll olunan, həm də həll olunmayan amin turşuları və lif mövcuddur. Xurma mədə-bağırsaq xəstəlikləri nəticəsində xroniki ishal səbəbindən kalium itkisini də doldurmağa kömək edir.

Bu meyvə sümük sağlamlığı üçün maqnezium, kalsium və bor ilə zəngindir. Sözügedən elementlər sümükləri gücləndirməyə, osteoporoz və sümük xərçəngi kimi xəstəliklər riskini azaltmağa kömək edir. Xurmanın tərkibində sümük inkişafı üçün vacib olan selen, manqan və mis var.

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Müdafiə Sənayesi Nazirliyi "İti qovan" pilotsuz uçuş aparatlarının seriyalı istehsalını davam etdirir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin şəxsi təşəbbüsü ilə

2005-ci ildə yaradılmış Müdafiə Sənayesi Nazirliyinin (MSN) birlik və müəssisələri Azərbaycan Ordusunu silah-sursatla fasiləsiz iş rejimində təmin edir.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, nazirliyin mütəxəssisləri hərbçilərlə birlikdə yeni tip silah və döyüş sursatlarının real döyüş şəraitində sınaqlarını keçirirlər.

Müdafiə Sənayesi Nazirliyinin müəssisələri yeni növ zərbə tipli, daha böyük dağıdıcı gücə malik "İti qovan" pilotsuz uçuş aparatlarının (PUA) seriyalı istehsalına başlayıblar.

Ali Baş Komandan İlham Əliyevin tarixə düşən bu ifadəsi PUA-ların qanadları üzərinə yazılıb. Hazırda "İti qovan" PUA-ları Azərbaycan Ordusunun istifadəsindədir.

### "Otokar" Afrika ölkəsinə "Arma" 8×8 və "Cobra II" ixrac edəcək

Türkiyənin "Otokar" şirkəti adını açıqlamadığı bir Afrika ölkəsi ilə 8×8 təkər formuluna malik "Arma" və 4×4 təkər formuluna sahib "Cobra II" zirehli nəqliyyat vasitələrinin ixracına dair müqavilə im-

zalayıb. "Otokar" şirkətindən "Azeri Defence"ə verilən məlumata görə, müqavilənin ümumi dəyəri 110 milyon ABŞ dolları təşkil edir. Bu, Afrikadan sfariş verilən ilk "Arma" 8×8 sifarişidir.

"Otokar" müqavilədə nəzərdə tutulan zirehli maşınların tədarükünə 2021-ci ildə başlayacaq və 2022-ci ilin sonuna qədər tamamlanacaq.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: Anar Əhmədov**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**